Coronavirus pandemic and the state of small business in Azerbaijan's tourism sector

Chinara Imamverdiyeva
PhD student, Azerbaijan Tourism and Management University.
Chief specialist, Department of Doctorate,
Azerbaijan State Academy of Physical Education and Sport
Email: chinara.imamverdiyeva@mail.ru
https://orcid.org/0000-0001-7801-489X

Abstract. The article describes the difficulties faced by entrepreneurs, especially small businesses, in the tourism sector of Azerbaijan during the coronavirus pandemic, as well as support measures taken by the state to minimize losses in this situation. At the same time, the scale of the impact of the coronavirus pandemic on global GDP, analysis of statistics of the most affected tourism sector, support packages for entrepreneurs in the tourism sector in foreign practice, easier monetary policy are studied and proposals for the development of tourism in Azerbaijan are put forward. The article focuses on the development of domestic tourism after the post-pandemic period, ensuring the accessibility of Karabakh for such enterprises as tourist destinations, cultural tourism, rural tourism, agritourism as the main direction of sustainable economic development. The importance of tourism as the second main source of income after energy production in the non-oil sector and constantly growing government support are emphasized.
Keywords: pandemic, tourism, small business, government support, economic packages.

http://dx.doi.org/10.29228/edu.335
JEL Z30, L21; **UDC** 338.48
To cite this article: Imamverdiyeva Ch. (2021). Coronavirus pandemic and the state of small business in Azerbaijan's tourism sector. *Economic Growth and Social Welfare*, Issue I, pp. 157-165.
Article history: Received – 10.12.2020; Accepted – 11.03.2021

Koronavirus pandemiyası və Azərbaycanın turizm sektorunda kiçik sahibkarlığın vəziyyəti

Çinarə İmamverdiyeva
Doktorant, Azərbaycan Turizm və Menecment Universiteti.
Baş mütəxəssis, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası.
E-mail: chinara.imamverdiyeva@mail.ru
https://orcid.org/0000-0001-7801-489X

Annotasiya. Məqalədə pandemiya dövründə Azərbaycan turizm sektorunda sahibkarların, xüsusilə kiçik sahibkarlıq subyektlərinin üzləşdiyi çətinliklər, mövcud vəziyyətdə itkilərin minimuma endirilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri qeyd olunmuşdur. Eyni zamanda koronovirus pandemiyasının qlobal ÜDM-dəki təsirlərinin miqyası, ən çox zərər görmüş turizm sektoru üzrə statistik məlumatların təhlili, xarici təcrübədə turizm sektoru üzrə sahibkarlara göstərilmiş dəstək paketləri, yumşaq monetar siyasət araşdırılaraq Azərbaycan turizminin inkişafı baxımından təkliflər verilmişdir. Məqalədə post-pandemiya dövründən sonra daxili turizmin inkişafı, Qarabağın turizm destinasiyası kimi sahibkarlıq subyektləri üçün əlçatanlığının təmin olunmasının, mədəni turizm, kənd turizmi, aqro turizmin davamlı və dayanıqlı iqtisadi inkişafda əsas istiqamət kimi seçilməsinin, turizmin qeyri-neft sektorunda enerji istehsalından sonra ikinci əsas gəlir sahəsi kimi dəyərləndirilməsinin və daim artan dövlət dəstəyinin əhəmiyyəti vurğulanmışdır.

Açar sözlər: pandemiya, turizm, kiçik sahibkarlıq, dövlət dəstəyi, iqtisadi paketlər.

http://dx.doi.org/10.29228/edu.335
JEL Z30, L21; **UDC** 338.48
Məqaləyə istinad: İmamverdiyeva Ç. (2021). Koronavirus pandemiyası və Azərbaycanın turizm sektorunda kiçik sahibkarlığın vəziyyəti. *İqtisadi Artım və İctimai Rifah*, № 1, səh. 157-165.
Məqalə tarixçəsi: göndərilib – 10.12.2020; qəbul edilib – 11.03.2021

Giriş / *Introduction*

Koronavirus (COVİD-19) dünya miqyasında geniş insan tələfatına və böyük bir iqtisadi böhrana səbəb olmuş pandemiya formasıdır. Çox təəssüflər olsun ki, hələ də yaratdığı təhlükələrin miqyası daim artan pandemiya şəraitinin qarşısını tamamilə almaq mümkünsüzdür. Mövcud reallıq isə pandemiyanın mənfi təsirlərini azaltmaq istiqamətində vacib addımların atılmasını tələb edir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) 2020-ci ilin aprel-iyun ayları üzrə verdiyi hesabatlarda qlobal ÜDM-də 6-7,6 % azalma, Beynəlxalq Valyuta Fondu isə ən yaxşı halda 4,4% azalma meylini proqnozlaşdırmışdır.

Son aylarda peyvəndləmə prosesinin sürətlənməsi pandemiya təsirlərinin bir qədər azalması ilə bağlı ümid yaratsa da, yeni virus dalğaları ilə bağlı narahatlıqlar davam etməkdədir. Aparılmış təhlillər dünya iqtisadiyyatında 2021-ci ildə əvvəlki dövrə nisbətən daha sürətli iqtisadi bərpanı

proqnozlaşdırır. Belə ki, Dünya Bankı 2021-ci il üçün qlobal ÜDM-də 5,5 %, 2022-ci il üzrə isə 4,2%, OECD isə 2021-ci ildə 4,25%, 2022-ci ildə 3,75% iqtisadi artım proqnozlaşdırıb (TURSAB, 2020, s.4).

Qlobal miqyasda əsrin ən böyük iqtisadi böhranına səbəb olmuş koronavirus epidemiyasının mənfi təsirləri ən çox turizm sektorunda muşahidə edilmişdir. Turist axınlarınlarına məhdudiyyətlər pandemiyanın yayılmağa başladığı ilkin mərhələdə qoyulsa da, yayılmanın sürətli artmı ilə demək olar ki, bütün beynəlxalq uçuşlar dayandırıldı. BMT-nin Ümumdünya Turizm Təşkilatı (UNWTO) tərəfindən aparılan qiymətləndirməyə görə, Covid-19–un turizm sektoruna vurduğu ziyan 2009-cu ildəki qlobal iqtisadi böhrandan 8 dəfə yüksək idi. Dünya Səyahət və Turizm Şurasının (WTTC) araşdırmasında pandemiya səbəbindən dünya miqyasında işlərini itirəcək turizm işçilərinin sayı 75-98 milyon, turizm sektorunun global ÜDM-də təsiri isə 5.5 trilyon dollar zərərlə hesablanmışdı (TURSAB, 2020, s.6). Şura (WTTC) dövlət və iri turizm kompaniyalarının maliyyə dəstəyinin əhəmiyyətini, bir sıra şirkətlər tərəfindən beynəlxalq bronlaşdırma sistemlərinə – xüsusilə kiçik və orta biznesə (turizm operatorları və səyahət agentliklərini, mehmanxanlar, ictimai iaşə və s. müəssisələri) vəsait ayrılmasının vacibliyini və koordinasiyanın zəruriliyini vurğulamışdı.

Əsas hissə / *Main Part*

Ədəbiyyatların təhlili

Pandemiya şəraitinin beynəlxalq bazarlarda yaratdığı ciddi maliyyə itkiləri ən nüfuzlu təşkilatların müxtəlif sektorlar üzrə araşdırmalarının genişlənməsinə səbəb oldu. Belə ki, cari dövr ərzində turizm sektorunda pandemiyanın təsirləri Ümumdünya Turizm Təşkilatının, Dünya Səyahət və Turizm Şurasnın tədqiqatlarının əsas obyektinə çevrildi. Beynəlxalq təşkilatlarla yanaşı, qısa müddətdə müxtəlif ölkə tədqiqatçıları Covid-19 virusunun turizmdəki təsirlərini həm də regional baxımdan araşdırmağa başladı. Bu təsirlərin analizi, məhdudiyyətlərin nəticələri Gössling, Scott və Hall (2020) tərəfindən təhlil edilmişdir. Bu tədqiqatçılar öz araşdırmalarında əksər ölkələrin dayanıqlı və davamlı turizmin inkişafına xüsusi diqqət ayırmasının vacibliyi, uzun müddət beynəlxalq turizm sektorunda tibbi sertifikatlaşdırma və sərhəd yoxlanışlarının daha ciddi şəkildə aparılması, turizm obyektlərində və turist daşımalarında sanitariya məsələlərinin tənzimlənməsi, yerli və daxili bazarların inkişafı məsələlərinə diqqət yönəltmişlər.

İtaliyanın Bologna Universitetinin professoru A. Qalvani, ABŞ-ın Oregon Dövlət Universitetinin professoru Alan A. Lyu və İspaniyanın Rey Xuas Karlos Universitetinin professoru M.S. Perezin apardığı araşdırmada (Galvani, Lew, Perez, 2020) isə pandemiyanın beynəlxalq şüurda yeni baxışların formalaşmasına təsiri, dayanıqlı və davamlı inkişaf strategiyaları, ətraf mühitə və təbiətə təsirin minimallaşdırılması, dövlətlərin turizm sektorunda yeni istiqamətlər və modellərdən istifadə mexanizmlərinin zəruriliyi təhlil edilmişdir.

Metodologiya

Məqalənin yazılmasında nəzəri təhlil metodundan istifadə edilmişdir. Covid-19 virusunun geniş yayılması, insanların sağlamlığına ciddi təsiri, beynəlxalq bazarlarda global problemlər yaratması, turizm sektoruna vurduğu ciddi ziyan, vaksinləşmə prosesinin başlanmasına baxmayaraq pandemiya ilə bağlı davam edən narahatlıqlar, ölkəmizdə də pandemiya əleyhinə ciddi məhdudlaşdırıcı tədbirlərdən istifadə kimi məsələlər nəzərə alınaraq, mövcud ədəbiyyatların təhlili və təkliflərin hazırlanması baxımından bu tədqiqat metodu seçilmişdir. Məqalədə bir çox xarici ədəbiyyatlara, beynəlxalq təşkilatların verdiyi statistik məlumatlara, yerli informasiya mənbələrinə istinad edilmişdir.

Nəticə və müzakirə

Pandemiya şəraitində beynəlxalq bazarda turizmə dəstək tədbirləri

Covid-19 virusunun qlobal yayılması ilə beynəlxalq turizm sənayəsində kiçik sahikarlıq sub-

yektlərinin fəaliyyətində ciddi mənfi təsirlər müşahidə olunmağa başladı. Mövcud şərait turizm iqtisadiyyatında qısa və uzun müddətli yeni inkişaf modellərinin yaradılmasını, bütün səviyyələrdə, xüsusilə dövlət və özəl sektor arasında koordinasiyalı fəaliyyətin vacibliyini, sektora davamlı dövlət dəstəyinin zərurətini formalaşdırdı. İqtisadi İnkişaf və Əməkdaşlıq təşkilatı (OECD) turizmin yenidən qurulması və bərpası baxımından aşağıdakı təklifləri irəli sürmüşdür:

- insanların səyahət etmək inamını yenidən bərpa etmək;
- turizm müəssisələrinin dəstəklənməsi;
- daxili turizmin təşviqi və beynəlxalq turizmdə təhlükəsizliyin təmini;
- ölkədaxili və ölkələrarası əməkdaşlığın gücləndirilməsi;
- daha davamlı və dayanıqlı turizm formalaşdırmaq (OECD, 2020).

Məlumdur ki, hazırki reallıqda davamlı dövlət dəstəyi olmadan turizm sektoruna dəymiş zərəri minimallaşdırmaq mükünsüzdür. Məhz bu baxımdan bir çox ölkələr turizmdə sahibkarlıq fəaliyyətinin davamlılığının təmini, iş yerlərinin qorunması məqsədi ilə müxtəlif iqtisadi paketlər hazırlamış, sığorta şərtlərini sadələşdirmiş, uzunmüddətli və aşağı faizli kreditlərin əlçətanlığını təmin etmiş, yumşaq monetar siyasət formalaşdırmışdır.

Beynəlxalq təcrübənin təhlili göstərir ki, Almaniya hökuməti pandemiya şəraitində Almaniya İnkişaf Bankı vasitəsilə ölkədəki turizm agentlikləri üçün 100%-li dövlət zəmanəti ilə 10 illik kredit dəstək paketi təklif etdi. Şərtlərə əsasən, 50 nəfərdən az işçisi olan şirkətlər maksimum 500 min avro, 50-dən çox işçisi olan müəsisələr isə 800 min avro məbləğində kreditlərdən faydalana bilərlər. Ölkədə eyni zamanda, bütün kiçik miqyaslı müəssisələr və fərdi sahibkarlar üçün 50 milyon avro həcmində qrant dəstəyi elan edildi. Səyahət agentlikləri də bu qrant paketlərindən faydalana bildilər. Qrant dəstəyinin şərtlərinə görə isə 5 nəfərə qədər işçisi olan səyahət agentlikləri 3 ay müddətində 9 min avro, 10 –a qədər işçisi olan agentliklər isə 15 min avro maliyyə dəstəyi əldə etmək imkanına malikdirlər. Almaniya Federativ Respublikasının İqtisadiyyat və Enerji Nazirliyi öz hesabatında 2020-ci il iyul ayının əvvəlində turizm sektoru üçün 25 milyard avro həcmində dəstək paketi hazırlandığını, avqust ayının sonuna qədər maliyyə dəstəyindən faydalanmaq üçün 40000 müraciət olduğunu və 700 milyon avro dəstəyin verildiyini bildirmişdi. Eyni zamanda səyahət agentlikləri və turoperatorlar turistlərə səyahətlərinin ləğvinə görə ödənilmiş məbləğin geri qaytarılması əvəzinə dövlət zəmanətli tətil kuponu təklif etmək imkanına malikdir. Bu mexanizmin tətbiqi Almaniyanın daxili bazarında daha faydalı nəticələr verdi. Avropa Birliyi ölkələrindən səfər edən turistlərin əksəriyyətinə isə əvvəldən nəzərdə tutulmuş məbləğ ödənildi.

Fransa hökuməti isə ilkin mərhələdə turizmə 2 milyard avro həcmində dəstək ayırmışdı. Sonrakı mərhələdə isə dövlət tərəfindən mehmanxana, restoran və digər turizm müəssisələri üçün 18 milyard avro maliyyə dəstəyi göstərildi. Eyni zamanda əksər müəssisələrdə məhdudiyyətlərin tətbiq edildiyi dövrdə işçilərin əmək haqqının 70%-i, əhalinin ən aşağı təbəqəsinin əmək haqqı isə bütövlükdə dövlət büdcəsi hesabına ödənildi.

Avstriyada turizm sektoruna ilk dəstək 6 mart 2020-ci il tarixindən həyata keçirilməyə başlandı. Bu paketə əsasən Avstriya Otel və Turizm Bankı tərəfindən edilən maliyyə dəstəyi daxil idi. Turizm sektoruna ayrılmış maliyyə dəstəyi təqribən 1,6 milyard avro idi.

İspaniya hökuməti 17 mart 2020-ci ildə Covid-19 virusunun iqtisadi təsirlərinə qarşı 200 milyard avro həcmində bir iqtisadi paket ayırmışdı ki, bu paketdən 117 milyard avro əhalinin əmək haqlarının ödənməsinə, 83 milyard avro isə böhrandan təsirlənən şirkətlər və işçilər üçün hesablandı. Turizm sektoru üçün 18 iyunda istifadəyə başlanılan dəstək paketinin ölçüsü 4,2 milyard avro idi. Bu dəstək paketinin 2,5 milyard avro hissəsi sektora veriləcək kreditlərə, 850 milyon avro rəqəmsallaşma və davamlı rəqabətin təşviqinə, 756 milyon avro isə avianəqliyyat sisteminə ayrılmışdı.

Portuqaliya xüsusi olaraq turizm sektoru, restoran biznesi üçün 600 milyon avro, turizm agentlikləri üçün 200 milyon avro, otellərə 900 milyon avro, sektordakı kiçik müəssisələr üçün isə 60 milyon avro kredit paketi təqdim etmişdi.

Qonşu Türkiyə Respublikasında turizm sektoruna və xaricdən turist gətirən dörd əsas, aparıcı turoperator qrupuna 150 milyon dollar dəstək verildi. Şərtlərə görə Kredit Zəmanət Fondu

tərəfindən ayrılan 10 illik kreditlərdən faydalanan turizm sektorundakı sahibkarlar 2 il heç bir ödəniş etmirlər (TURSAB, 2020, s.13-16).

Ümumilikdə, pandemiya dövründə əksər ölkərlər dövlət büdcəsinə uyğun olaraq müxtəlif iqtisadi paketlərdən istifadə edərək sektora dəyən ziyanı minimallaşdırmağa çalışmışlar.

Azərbaycanda pandemiya dövründə sahibkarlıq sektoruna dövlət dəstəyi

Müasir dövrdə ölkəmizin turizm siyasətinin əsasını bu sektor üzrə sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin verilməsi, dövlət tənzimlənməsinin təkmilləşməsi, hüquqi bazanın inkişafı kimi məsələlər təşkil edir. Turizmin iqtisadi baxımdan yüksək gəlir yaratması, bir sıra sosial-iqtisadi problemlərin həllindəki rolunu nəzərə alan professor Əlirzayev Ə.Q. (2010, s.18) kiçik sahibkarlıq subyektlərinə dövlət dəstəyi mexanizmi məsələsini araşdırarkən fiziki şəxslərin dövlət qayğısına xüsusi ehtiyacı olduğunu vurğulamışdır. İstənilən sektorda olduğu kimi turizmdə də dövlət tənzimlənməsinin tətbiqi zamanı mövcud resurslar, imkanlar qiymətləndirilməli və tətbiq edilməlidir. Turizm sahəsində hüquqi bazanı yaratmaq və ya mövcud bazanın təkmilləşdirilməsi, tur məhsulu formalaşdıran subyektlərin və turistlərin hüquqlarını qorumaq, turist infrastrukturunun formalaşmasına kömək olmaq və sərmayələr cəlb etmək dövlət tənzimlənməsində xüsusi rol oynayır. Turizm biznesi həmçinin kiçik sahibkarları həcmi o qədər də çox olmayan start kapitalı, qoyulan vəsaitlərin qısa müddətdə ödənilməsi, xidmətlərə daimi tələbatın olması, çəkilən xərclərin yüksək rentabellilik səviyyəsinə görə özünə cəlb edir.

Ölkədə turizm sektoru kiçik sahibkarlıq baxımından təhlil edilərkən daha çox restoranlar, üç və dörd ulduzlu hotellər, turoperator və turagent müəssisələri, əyləncə mərkəzlərinin fəaliyyəti nəzərdə tutulur. Məlumdur ki, turizm sektorunda kiçik biznes mühitinin genişlənməsi həmçinin işsizlik probleminin həllinə, ölkə iqtisadiyyatının stabilləşməsinə, müxtəlif xidmət sahələrinin genişlənməsinə təkan verir. Kiçik müəssisələrin turizm sektorunda fəaliyyət sferasının artımı birbaşa ölkədə daxili turizmin tərəqqisi, büdcəyə bu istiqamətdə mənfəətin artımı deməkdir. Turizm bazarında kiçik sahibkarlığın inkişafı üçün resurs bazanın mövcudluğu, son illərdə dövlət dəstək tədbirlərinin artması, bölgələrdə inkişaf etdirilməsi üçün imkanların olması və s. sektor üzrə dövlət tənzimlənməsinin zəruriliyini ifadə edir (Bilalov, 2006, s.135).

Cədvəl 1. Azərbaycanda 2006-2019-cı illərdə iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə kiçik sahibkarlıq subyektlərinin sayı

Göstəricilər	2006	2015	2016	2017	2018	2019
İqtisadi fəaliyyət növləri üzrə mikro və kiçik sahibkarlıq subyektləri	184008	183271	187598	165386	242745	262622
İqtisadi fəaliyyət növləri üzrə kiçik sahibkarlıq subyektləri	-	-	-	-	4930	5956
Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə mikro və kiçik sahibkarlıq subyektləri	10318	14162	15390	16762	18242	19817
Turistlərin yerləşdirilməsi və ictimai iaşə üzrə kiçik sahibkarlıq subyektləri	-	-	-	-	198	216

Mənbə: müəllif tərəfindən (AKOS, 2020 s.15-17) əsasında tərtib edilmişdir

Son illərdə sahə üzrə ardıcıl və planlı işlərin həyata keçirilməsi, vergi-kredit mexanizmlərinə xüsusi diqqətin ayrılması pandemiyadan öncə artıq iqtisadi rifahda öz təsirini göstərmişdi. Görülən işlərin nəticəsi ötən 10 il ərzində sahibkarlıq subyektlərinin sayında kifayət qədər artımın müşahidə olunmasına, turizm sektorunun inkişafına zəmin yaratdı. Aparılan təhlillər göstərir ki, turizm

sektoru üzrə kiçik və mikro sahibkarlıq subyektlərinin sayında 2016-2019-cu illərdə 1,9 dəfə, ümumilikdə iqtisadi fəaliyyət növləri üzrə isə 1,4 dəfə artım müşahidə edilmişdir. Azərbaycanda mikro, kiçik və orta sahibkar meyarları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli qərarı ilə yeni formada təsnifləşdirildiyi üçün kiçik sahibkarlıq subyektlərinin ayrıca təhlilini son dövrlərdə daha aydın şərh etmək olur. Təsdiq olunmuş meyarlara görə mikro sahibkarlara işçilərinin orta siyahı sayı 10 nəfərədək, illik gəliri 200 min manatadək olan, kiçik sahibkarlara işçilərinin orta siyahı sayı 11 nəfərdən 50 nəfərədək, illik gəliri 200 min manatdan 3000 min manatadək olan, orta sahibkarlara işçilərinin orta siyahı sayı 51 nəfərdən 250 nəfərədək, illik gəliri 3000 min manatdan 30000 min manatadək olan müəssisələr aid edilirlər (AKOS, 2020, s.3).

Pandemiya şəraiti isə bütün dünyada iqtisadi böhrana səbəb olduğu bir vaxtda ölkə iqtisadiyyatında da mənfi təsirlər hər sahədə, xüsusilə kiçik sahibkarlıq subektlərinin fəaliyyətində özünü biruzə verdi. Əhalinin sağlamlığı, sosial rifah baxımından ilkin mərhələdə məhdudiyyətlərin tətbiq edilməsinə xüsusi diqqət göstərildi. Sonrakı mərhələdə isə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli "Koronaviris pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamının icrası ilə bağlı tədbirlər panı hazırlandı və onun icrasına başlanıldı.

Tədbir planına əsasən ölkədə yaxın müddət ərzində həm kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinə dəstək verən, həm də dövlət maliyyə təşkilatlarının fəaliyyətini əlaqələndirən yeni strukturun Koordinasiya Şurasının yaradılması nəzərdə tutulub. Bununla yanaşı, tədbirlər planında aşağıdakı məsələlərə xüsusi diqqət ayrılmışdır:

- işsizlik səviyyəsinin artımının qarşısını almaq məqsədilə pandemiyadan ziyan görmüş sahələrdə çalışan muzdlı işçilərin əmək haqqının müəyyən hissəsinin ödənilməsi;
- pandemiyanın güclü təsir etdiyi fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin verilməsi;
- pandemiyadan ziyan çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq, xüsusilə kiçik və orta biznes subyektlərinə vergi güzəştlərinin və tətillərin verilməsi;
- sahibkarlığa (kiçik və orta sahibkarlığa) dövlət tərəfindən kredit-zəmanət dəstəyinin göstərilməsi;
- pandemiyanın təsir etdiyi sahibkarlıq subyektlərinə dövlət tərəfindən əlavə dəstəyin verilməsi (dövlət əmlakını icarəyə götürmüş və zərər çəkmiş sahibkarların icarə haqqının 2020-ci ilin sonuna kimi hesablanmaması və s) ;
- post-pandemiya dövründə iqtisadi artıma nail olmaq üçün yeni modelin tətbiqi və s. (ARNK, 2020).

Aparılan islahatların davamı olaraq İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilən proqramlar çərçivəsində sahibkarların maliyyə resurslarına asan çıxış imkanının artırılması, müəyyən qrup vergilərin azaldılması pandemiya təsirlərinin minimallaşdırılmasına yönəlmişdir. Təhlillər göstərir ki, koronovirus pandemiyasının yayıldığı ilkin dövrdə özəl sektorda 210 mindən çox işçinin əmək haqqının müəyyən bir hissəsi dövlət tərəfindən ödənilmişdir. Həmçinin 106 mindən çox fərdi sahibkara pandemiya təsirinin vurduğu ziyanı azaltmaq məqsədilə ümumilikdə 63319, 9 min manat vəsait ödənilib.

Vergi güzəştləri və tətillərlə bağlı təhlillər göstərir ki, sahibkarlıq subyektlərinə ümumi dəyəri 130 milyon olan güzəştlər edilmişdir. Ötən dövr ərzində, həmçinin sahibkarların kredit resurslarına çıxış imkanlarının artırılması, yeni kreditlərə dövlət zəmanətinin verilməsi (60%), kredit üzrə faizlərin subsidiyalaşdırılması və s mexanizmlər tətbiq olunmağa başlandı. Pandemiya dövründə MDB məkanında ilk dəfə tətbiq edilən, sahibkarların onlayn rejimdə kreditlərə müraciətinə imkan yaradan, dəyərləndirən və qısa müddətdə (7-10 gün) müraciətlərlə bağlı sorğuları cavablandıran elektron kredit platformasının tətbiqinə başlanıldı.

Yaxın müddətdə sahibkarlıq sahəsində aparılan yoxlamaların 2022-ci ilin yanvarın 1-nə kimi dayandırılması məqsədilə müvafiq qanuna dəyişikliklərin edilməsi nəzərdə tutulub. Milli Məclisin plenar iclasında qəbul olunmuş qərarın ölkə rəhbərinin təsdiqi ilə qüvvəyə minməsi ilə icazə verilən yoxlamalar istisna olmaqla, qadağan olunmuş dövr ərzində heç bir sahibkarın fəaliyyəti yoxlanmayacaq.

Ümumilikdə, pandemiya dövründə sahibkar fəaliyyətindəki itkilərin minimallaşdırılması, post pandemiya mərhələsində itirilmiş iqtisadi fürsətləri yenidən əldə etmək üçün bir çox ölkələrin tətbiq etdiyi yumşaq monetar siyasətin tətbiqi mövzud vəziyyətdə arzuolunandır.

Pandemiya dövründə turizm sektorunun vəziyyəti

Koronavirus pandemiyasının yayılması əksər ölkələrdə olduğu kimi Azərbaycanda da turizm sektorunun inkişafına öz zərərini göstərmişdir. Bunun əsas səbəbləri kimi ölkə sərhədlərinin bir müddət bağlı olmasını, uçuşların müvəqqəti dayandırılmasını, karantin qaydalarına uyğun olaraq bir sıra müəssisələrin fəaliyyətində məhdudiyyətlərin tətbiqini və s. qeyd etmək olar. Bu da təbii olaraq əhalinin sağlamlığının qorunması məqsədi daşıyırdı. Dövlət Sərhəd Xidmətini qeyd etdiyi məlumatlarda göstərilir ki, 2020-ci ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ölkəmizə 2,4 dəfə az turist (590,1 min) daxil olub. Pandemiyanın təsirinin azaldılması istiqamətində ölkənin turizm sektorunda bir sıra tədbirlər həyata keçirilməyə başlanıldı. Qeyd edək ki, pandemiyanın yayılması ölkədə daha çox daxili turizm sektoruna diqqətin artımına və təhlükəsizlik məsələsinin ön plana çıxmasına səbəb oldu. Pandemiyanın ilk mərhələsində rəqabətqabiliyyətli biznesin təmini, turizm sektorunda təhlükəsizlik və gigiyenaya nəzarət mexanizminin qurulması məqsədilə Sanitariya və Gigiyena Metodları və Normaları proqramı (SAHMAN Sanitation and Hygiene Methods and Norms) hazırlanmış və onun tətbiqi ilə bağlı yeni platforma qurulmuş, metodik tövsiyələr nəşr edilmiş, onlayn təlimlərə və sertifikatların verilməsinə başlanılmışdır (SAHMAN, 2020).

Eyni zamanda daxili turizmin inkişafı məqsədilə "Macəra yaxındadır" platforması quruldu. Bu layihə çərçivəsində tərəfdaş şirkətlər öz turizm paketlərini mövcud platformada yerləşdirir. Kompaniya turizm fəaliyyəti üzrə dövlət tənzimlənməsinin bir istiqaməti kimi çıxış edir. Ölkənin turizm potensialının təbliğinin genişləndirilməsi, xarici turistlərin məlumatlandırılması, müxtəlif tur paketlərin, yerləşdirmə müəssisələrinin, aviabiletlərin qiymətlərini müqayisə etmək və sərfəli seçim üçün "Azerbaijan.travel" platforması yaradılmışdır.

Eyni zamanda turizm sektorunda fəaliyyət göstərən sahibkarlar da pandemiya dövründə dövlət dəstək tədbirləri və iqtisadi paketlərdən yararlana bildilər. Pandemiyanın davam etdiyi növbəti aylarda da bu dəstək tədbirlərinin güclənməsi nəzərdə tutulub.

2020-ci il global pandemiya problemi ilə yanaşı Azərbaycan tarixində Zəfər ili kimi yadda qaldı. İşğaldan azad olunmuş torpaqlarımızda yeni iqtisadi inkişaf modelində daxili turizm, kənd turizmi, aqroturizm, mədəni turizm əsas istiqamətlərdən biri kimi nəzərdə tutulub. Böyük Qayıdış proqramının icrası istiqamətində ardıcıl işlərin aparılması, "Ağıllı kənd" layihəsinin tətbiqi həm də turizm sektoru üçün yeni bir baxış bucağı formalaşdırır. Qarabağın turizm potensialının düzgün şəkildə istifadəsi, sahibkarlar üçün əlçatan şərtlərlə yeni investisiya mühitinin yaradılması, dayanıqlı və davamlı turizmi inkişafı qarşıdakı illər üçün əsas prioritetdir.

Nəticə / *Conclusion*

Turizm sektoru Azərbaycan üçün prioritet istiqamət olmaqla yanaşı, dövlət dəstəyinin göstərildiyi enerji sektorundan sonra ikinci əsas qeyri-neft sektorudur. Əvvəlki illərin statistik təhlilləri də göstərir ki, turizm sektorunda 2015-ci ildən yeni mərhələ başlanmış və 2019-cu ildə davamlı iqtisadi inkişafın nəticəsi olaraq ölkəyə 3 milyondan çox turist gəlmiş, ölkə büdcəsinə isə 2 milyard dollar gəlir daxil olmuşdu [9]. Ötən dövr ərzində turizm infrastrukturunun yaxşılaşdırılmasına, viza sisteminin sadələşdirilməsinə, turizmdə yeni texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilmiş, mehmanxana və restoranlarda xidmət keyfiyyəti və təhlükəsizliyin yüksəldilməsi istiqamətində

monitoriqlərin aparılmasına başlanılmış, ölkənin turizm potensialının müxtəlif layihələr çərçivəsində tanıtımı davam etdirilmişdir. Pandemiya dövründə dövlət büdcəsi nəzərə alınmaqla ayrılmış maliyyə vəsaitləri hesabına sektor üzrə kiçik sahibkarlıq subyektlərinin fəaliyyəti dəstəklənmişdir. Beynəlxalq təcrübənin təhlili əsasında post pandemiya dövrü üçün Azərbaycan turizminin inkişafında aşağıdakı istiqamətlər tətbiq edilə bilər:

- daxili turizmin inkişafına maliyyə-kredit dəstəyinin göstərilməsi;
- kənd turizmi, aqroturizm, qastronomik turizm formalarının inkişafı istiqamətində yeni mexanizmlərin işlənməsi;
- daxili turizm bazarında dövlət zəmanətli tur pakelərdən istifadə mexanizminin qurulması;
- turizm müəssislərində sanitariya və gigiyena tədbirlərinə ciddi nəzarət;
- beynəlxalq təcrübədən çevik istifadə;
- qonşu ölkələrlə turizm əlaqələrinin yenidən bərpası və möhkəmləndirilməsi.

Beləliklə, kiçik turizm müəssisələrinin maliyyə-vergi məsələlərində üzləşdiyi əsas problemlərin həlli, beynəlxalq təcrübədən çevik istifadə mexanizminin tətbiqi post pandemiya dövründə sektorun dayanıqlı və davamlı inkişafına zəmin yaradacaqdır.

İstifadə edilmiş ədəbiyyat / *References*

ARNK (2020). COVID-19 pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı tədbirlər planı. https://nk.gov.az/az/document/4367/. İstinad tarixi: yanvar, 2021.

AKOS (2020). Azərbaycanda kiçik və orta sahibkarlıq. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.

TSTS (2020). Turizm sahəsində tədqiqat və statistika. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. https://tourism.gov.az/page/statistics. İstinad tarixi: yanvar, 2021.

Museyibov Ayaz (2020). Qlobal pandemiyanın iqtisadi nəticələri və mübarizə tədbirləri. https://iqtisadiislahat.org/store//media/2020/01042020iqtisadi-tesviq_COV-19.pdf. İstinad tarixi: yanvar, 2021.

Galvani Adriana, Lew Alan A., Perez Maria Sotelo (2020). COVID-19 is expanding global consciousness and the sustainability of travel and tourism. Tourism geographies. https://doi.org/10.1080/14616688.2020.1760924.

Bilalov B.Ə (2006). Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı: Mütərcim nəşriyyatı.

Əlirzayev Ə.Q. (2010) Turizmin iqtisadiyyatı və idarə edilməsi. Bakı: İqtisad Universiteti nəşriyyatı.

OECD (2020). OECD Policy Responses to Coronavirus (COVID-19). http://www.oecd.org / coronavirus/policy-responses/rebuilding-tourism-for-the-future-covid-19-policy-responses-and-recovery-bced9859/ İstinad tarixi: yanvar, 2021.

Sultanova R.P (2016). Azərbaycanda turizmin inkişafının dövlət tənzimlənməsi. *Müasir dövrdə effektiv idarəetmənin problemləri" mövzusunda respublika konfransının materialları.* Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, səh. 84-85.

Gössling Stefan, Scott Daniel, Hall C. Michael (2020). Pandemics, tourism and global change: a rapid assessment of COVID-19, Journal of Sustainable Tourism. https://doi.org/10. 1080/ 09669582.2020.1758708.

SAHMAN (2020). Sanitariya və Gigiyena Metodları və *Normaları* Proqramı. https:// sahman. az/ standart-ve-normalar. İstinad tarixi: yanvar, 2021.

TURSAB(2020) Covid-19 surecinde Türkiye ve dünya turizmi değerlendirmesi. www.tursab. org.tr. İstinad tarixi : yanvar, 2021.

Пандемия коронавируса и состояние малого предпринимательства в секторе туризма в Азербайджане

Чинара Имамвердиева
Докторант, Азербайджанский Университет Туризма и Менеджмента.
Главный специалист департамента докторантуры,
Азербайджанская Государственная Академия Физической Культуры и Спорта
Email: chinara.imamverdiyeva@mail.ru

Резюме. В статье отмечаются трудности, с которыми сталкиваются предприниматели, особенно малый бизнес, в туристическом секторе Азербайджана во время пандемии, а также меры поддержки, предпринимаемые государством для минимизации потерь в сложившейся ситуации. При этом изучаются масштаб воздействия пандемии коронавируса на мировой ВВП, анализ статистики наиболее пострадавшего туристического сектора, пакеты поддержки предпринимателей в туристическом секторе в зарубежной практике, мягкая денежно-кредитная политика и выдвигаются предложения по развитию туризма в Азербайджане. В статье делается акцент на развитии внутреннего туризма после постпандемического периода, обеспечении доступности Карабаха для таких предприятий, как туристические направления, культурный туризм, сельский туризм, агротуризм как основное направление устойчивого экономического развития. Подчеркывается важность туризма как второго основного источника дохода после производства энергии в ненефтяном секторе и постоянно растущей государственной поддержки.
Ключевые слова: пандемия, туризм, малый бизнес, государственная поддержка, экономические пакеты.